# Azərbaycana İslamiyyətin Gəlişi

VII əsrin 30-cu illərində başlayan müsəlman fəthləri cox keçmədən Atlantik okeanından Hindistana qədər çox boyük bir coğrafiyada yaşayan müxtəlif xalqların həyatında köklü dəyişikliklər meydana gətirdi. 633-cü ildə Sasani imperatorluğunun sərhədlərini keçən müsəlman qüvvələri nəhayət 637-ci ildə imperatorluğun paytaxtı Mədaini, eyni ilin sonunda isə bütün Sasani ölkəsini fəth etdilər. Mədainin fəthi Sasani imperatorluğunun bir parçası olan Azərbaycanın fəth olunacağına işarə edirdi. Belə ki, bu hadisədən iki il sonra 639-cu ildə Azərbaycan da müsəlmanlar tərəfindən fəth edildi. 630-cu illərdə xilafət ordularının Qafqaza səfəri ərəfəsində Azərbaycanda həm siyasi, həm də ekonomik vəziyyət çox qarışıq idi. Bu qarışıqlığın əsas səbəbi III əsrdən etibarən başlayan Bizans və Sasani imperatorluqlarının Qafqaz uğrundakı müharibələri, yəni İrana bağlı Azərbaycana şimalda yaşayan Xəzərlilər tərəfindən edilən sarsıdıcı hücumlar idi. VII əsrin sonlarında həm Azərbaycan, həm də Arran Sasanilər imperatorluğunun bir parçası olub, İberiya və Ermənistanla birlikdə imperatorluğun dörd siyasi idarəetmə bölgəsindən biri olan şimal bölgəsini (Qafqaz canişinliyi) meydana gətirməkdədir. İmperatorluq Kisra Ənuşiravan tərəfindən dörd bölgəyə bölünmüş və hər birinə onu idarə edəcək rəis təyin edilmişdir. Dörd bölgədən birincisini Xorasan, Sicistan və Kirman, ikincisini İsfahan, Qum, Cibal, Azərbaycan və Ermənistan, üçüncüsünü Fars, Əl-Əhvaz və Əl-Bəhreyn, dördüncüsünü isə İraqdan Rum ölkəsinin sərhədlərinə qədər uzanan torpaqlar meydana gətirir. Azərbaycan,

Ermənistan, Amul, İberiya, Arran, Balasakan, Siskan, Mukan, Deylm, Dimavənd və Rüyamın meydanan gətirdikləri şimal bölgəsinin rəisi Zeydiyə b. ən-Tahirəcan idi. Azərbaycanın şimal bölgəsi stratejik cəhətdən çox böyük əhəmiyyətə sahib idi. Çünki bu bölgə imperatorluğa girən yolları şimalda Xəzərlilərdən, qərbdə isə Bizanslılardan qoruyurdu. Xəzərlilər Arran və Azərbaycana sıx-sıx basqınlar düzəldirdilər. Bu səbəbdən də Sasani padişahları öz sərhədlərini gücləndirməyə son dərəcə əhəmiyyət verirdilər. Ziya Bünyadov Xəzərlilərin Azərbaycana hücumları haqqında belə yazır: "Ümumi adı Arran olub, yarı müstəqil, ancaq padişahlıq şəklində İrana bağlı olan Azərbaycanın şimal sərhədləri ardı-arası kəsilməz bir şəkildə Xəzərlilərin hücumlarına məruz qalırdı. Onların məqsədləri Arran xalqını kölə halına gətirmək, torpaqlarını və təbii sərvətlərini əldə etmək idi. Beləcə bu məhvedici hücumlar nəticəsində Arran həm ekonomik, həm də politik cəhətdən bir və ya bir neçə qonşu dövlətlərə bağlı hala gəlirdi" (1, s.39). Bu dövrdə ardı kəsilməyən, sonu gəlməyən İran-Bizans, Bizans-Xəzər, Xəzərİran müharibələri sürürdü. Ancaq bu müharibələr mövzumuz cəhətindən çox da əhəmiyyət kəsb etmədiyi üçün burada onlardan bəhs etməyəcəyik. Ancaq bu qədərini deyə bilərik ki, müsəlmanların bu bölgəyə gəlmələrindən sonra bu müharibələr başa çatdı. Müsəlmanların gəldiyi əsnada şimal bölgəsini İsfəndiyar b. Fərruxzad idarə edirdi. Məlum olduğu kimi Sasanilər, imperatorluğun içərisində yer alan bütün xalqların siyasi müstəqilliyini ortadan qaldırmağa çalışırdılar. Bu səbəbdən də İran şahları özlərinə tabe olan ölkələrə valilər təyin edir və bütün güvənliklə əlaqəli məhkəmə və əskəri qüvvətləri onlara tabe edirdilər. Azərbaycan Sasani imperatorluğunun bir parçası olduğuna görə torpaq

sahibliyi, torpağı işlətmə şəkili və vergi sistemi imperatorluğun hər yerində tətbiq olunan qanunlara görə idi (1, s.60). Azərbaycan torpaqlarının zənginliyinə və münbitliyinə "Akvan tarixi" əsərində yer verən Moisey Kağankatlın belə yazır: "Böyük Qfqaz dağları arasında yerləşən Albaniya ölkəsi təbii sərvətlərlə dolu və zəngindir. Böyük Kür çayı ölkənin ortasından axıb, böyük və kiçik balıqlar gətirir və öz suyunu Xəzərə axıdır. Onun ətrafındakı çöllərdə bol taxıl, şərab, neft, duz, ipək, pambıq və çox sayda zeytun ağacları vardır" (2, s.5-6). Eyni qaynaqda müəllif soial vəziyyətə də nəzər salır və sosial vəziyyətin feodalizm xüsusiyyətlərini daşıdığını ifadə edir. Orta əsrlərin əvvəllərində Arran feodallarının əhəmiyyətli torpaq sahəsi xüsusi mülk idi. Bu mülk kəndlinin əlindəki torpaqlardan tutularaq və qazanılmış müharibələr nəticəsində genişləndirilə bilirdi. Bu dövrdə Arranda hakim sinif feodallar və ruhanilər (kilsə) idi (1, s.62). Müsəlmanların Arrana səfəri əsnasında orada ən böyük mülkə sahib olan böyük kinyaz (padşah) idi. Onu Arran kilisəsi izləyirdi. Bu illərdə bəxşiş və nəzirlərlə zənginləşən kilsə, torpaqlarını genişlətmək üçün mücadiə edirdi. Bəzən bu mücadilələrdə müvəffəq olurdular. Kilsəni Katolikos idarə edirdi. O, bəzən böyük kinyaza belə tabe olmaya bilirdi. Hətta onun adı bəzən kinyazın adından daha əvvəl zikr edilirdi. Katolikos ölkədəki bütün kinyazları itaətə məcbur edə biləcək yeganə güc idi. Onun əmrlərinə tabe olmayan kinyazlara lənət oxuyur, hətta edam etdirirdi. Arran kilisəsi qısa bir zamanda o qədər gücləndi ki, torpaq satılarkən və ya varislərə verilərkən kilsənin payının ayrılmasını kinyazlara əmr edə biləcək vəziyyətə gəldi. Bu əmrə tabe olmayan kinyazlar kilsə tərəfindən lənətlənirdi. Qısacası feodal istəsə də istəməsə də torpağının bir parçası kilsəyə

veriləcəkdir (1, s.64). Arran xalqını böyük ölçüdə kəndlilər meydana gətirirdi. Onların çoxu da kinyazlara bağlı idi. Məsələn, padşah Vaçenin əmri altında min ailə var idi. Ancaq bunların yanında azad olan və sıxışdırılan kəndlilər də var idi. Bu kəndlilər çox vaxt varlıqlarını qorumaq üçün açıq etirazları edirdilər. Bu etrazlar padşah Vaçaqanın dini toplantı çağırması ilə sona çatdı. Padşah bu toplantıda verdiyi bir əmrə görə əsilzadə ölənləri yad etmək üçün ibadət edəcəkdir, bunun üçün də kilsəyə sədəqə ödəyəcəkdir (1, s.66-67). Arranda bir də "Əskəri kişi" və "atlı" şəklində adlananlar da vardı. Bunlar böyük ehtimal ilə döyüş zamanında feodal ordusu kimi padşahın qoşunlarında xidmət edən pullu əskərlər idi. Sasanilərin Azərbaycanda vergi toplama sisteminə gəlincə, bu plan I Xosrov Nuşiravan tərəfindən hazırlanmış, imperatorluq əhalisinin sayı torpaq mülklərinin siyahısına görə edilirdi. Bu vəziyyət imperatorluğun hər yerində vergi toplamağı asanlaşdırırdı. I Xosrova qədər vergilər toplanan məhsuldan əldə edirlən kara görə alınırdı. I Xosrov zamanında isə vergi torpağın işlədilməsinə, sulanmasına və məhsula görə alınırdı (1, s.69-70). Can vergisi, ayanlar, ruhanilər və əskərləri çıxmaq şərtilə iyirmi ilə əlli yaş arasında bütün əhalidən toplanırdı. Can vergisinin miqdarı dəqiq təyin edilməmişdi. İldə 4 ilə 12 dirhəm arasında toplanırdı. Azərbaycana ilk müsəlman səfərləri Yuxarıda ifadə etmək istədiyimiz kimi müsəlmanların gəldiyi əsnada Azərbaycanda vəziyyət çox kritik idi. Artıq dörd vilayətin əskərlərini bir arada toplamaq mümkün deyildi. Bir araya gəldikləri zaman belə keçmişdən aralarında var olan problemlər təkrar baş qaldırır və ordu parçalanırdı. Beləcə mövcud olan bu vəziyyət Sasani imperatorluğunun torpaqlarının hamısının müsəlmanlar tərəfindən fəthinə və

bir neçə il sonra imperatorluğun çökməsinə səbəb oldu. Sasani torpaqlarının fəthi ilə Arranın fəthi arasında çox vaxt keçmədi. İmperatorluğun müsəlmanlara baş əyməsi ilə Arranın cənub sərhədləri açılmış oldu. Müsəlmanlar şimala doğru irəliləməyə başladılar. Yəni şimali Azərbaycana. Azərbaycanın cənubu Sasani impetatorluğunun bir parçası olduğuna görə daha əvvəl fəth edilmişdir. Azərbaycanın müsəlmanlar tərəfindən fəthedilmə hadisəsi VII əsrin əvvəllərində həyata keçdiyi mövzusunda qaynaqlarda heç bir ixtilaf yoxdur. Ancaq dəqiq olaraq hansı ildə həyata keçdiyi barədə bir az fərqli xəbərlər mövcuddur. Ancaq bu da ifadə edilməlidir ki, fərqli xəbərlər arasında elə çox da fərq yoxdur. Yəni hansısa 639, hansısa 640, 641 və 642-ci illərdə həyata keçdiyini iddia edirlər. Ümumi olaraq nəzər saldığımızda Sasani torpaqlarının fəthi müsəlmanlar tərəfindən o qədər də çətin olmamışdır. Zahirən çox qüvvətli görünən Sasani imperatorluğunun bu şəkildə məğlub edilməsi müsəlmanları çaş-baş salırdı (3, c.I, s.232). Necə ki, Ömər ordusuna irəli getməmələrini, olduqları yerdə qalmalarını əmr etmişdir. Xilafət ordusu 634-cü ildə Yərmuq müharibəsində Bizanslıları məğlub edib Suriyanı ələ keçirdi. Bu fəth müsəlmanlara İranın qapısını açmış oldu (4, s.235). Müsəlmanlar İranlılarla Qadisiyə və Nəhavənddə qarşı-qarşıya gəldilər. Ancaq bütün Orta şərqi Bizansla yarı-yarıya bölüşən Sasani imperatorluğu hər iki müharibədə də çox müqavimət göstərmədən müsəlmanlara boyun əydi. İranlıların müsəlmanlara qarşı müqavimət göstərmələrinin mümkün olmadığını yuxarıda ifadə etməyə çalışdıq. Nəhavənddəki məğlubiyyətdən sonra müharibə etmək və torpaqlarını qorumaq üçün istəksiz olan Farslıların əhvali ruhiyyəsi pozuldu. Akademik Nailə Vəlixanlınını Təbərindən rəvayətinə görə: “O gündən sonra Farsların

birliyi tam olaraq pozuldu. Ancaq Sasani imperatorluğunun paytaxtı Mədainin (Ktesifon) fəthi müsəlmanlar tərəfindən o qədər asand olmadı” (5, s.18). Hörmətli akademikə görə Azərbaycanlılarla müsəlmanların qarşı-qarşıya gəlmələri ilk olaraq Mədainin fəthi əsnasında həyata keçmişdir (5, s.18). Sasani imperatorluğunun son hökmdarı III Yəzdicərd (Yezdəgird) Mədaini mühasirəyə alan müsəlmanlara qarşı Azərbaycandan 80 min nəfərlik ordunu Rüstəmin əmri altında müharibəyə göndərir. Rüstəmin əmri altında sadəcə Azərbaycanlı əskərlər deyil, Arran və Erməni əskərləri də var idi (3, c.IV, s.138). Ancaq müsəlmanlar Sasani imperatorluğunu, Rüstəmin ordusunu, həm də İranın digər bütün ordularını darmadağın etdilər. Bələzuri “Futuh əl-Büldan” adlı əsərində bu müharibəni belə təsvir edir: “Bu şiddətlə müharibədə müsəlmanlar farslarla qarşı-qarşıya gəldilər. Onlara dayanmadan ox atır, nizə ilə parçalayır, qılıncla doğrayırdılar. İndiyə qədər müsəlmanlar heç belə müharibə etməmişlərdi. Daha sonra müsəlmanlar Farsları öz mövqeylərindən qaçmağa məcbur etdilər. Müsəlmanlar qaçan Farsları təqib etdilər. Onları ələ keçirib məhv edirdilər. Yalnız hava qaralan kimi müsəlmanlar yerlərinə qayıdırdılar (6, s.255). Müsəlmanların Sasani imperatorluğunun Xəzər sahili vilayətlərinə və Azərbaycana həqiqi hücumu 642-ci ildə Nəhavənd və Həmədanın fəthindən sonra həyata keçdi. Torpaqlarını müsəlmanlara vermək istəməyən Azərbaycan, Deyləm və Reylilər, Dətəmə yaxınlarında olan Vacrud adlı yerdə toplandılar. Bunların orduları nizamsız idi. Burada edilən müharibədə hər iki tərəfin də böyük itkisi oldu. İtki cəhətindən bu müharibə Nəhavənd müharibəsinə barabər idi (3, c.I, s.250). Müsəlmanları qələbəsi ilə sona çatan bu müharibədə Azərbaycanlıların komandiri Mərzubani

İsfəndiyar b. Fərruxzad idi. Müharibədən geri qayıdarkən İsfəndiyar azalmış ordusunu Azərbaycanın Bacarvan, Miməz, Bəzz, Şərab, Şiz, Mavanic şəhərlərindən aldığı güclərlə yenidən gücləndirdi. Nəhavənd müharibəsindən tam bir il sonra Reyin fəthi daha sonra Ərmədan, Ömərin əmri ilə Bukeyr b. Abdullah və Utbə b. Fərqadın əmrindəki müsəlmanlar Azərbaycan sərhədlərini keçdilər. Bu arada Hüzeyfə b. Yəmam da öz vəzifəsindən azad edilmişdir (5, s.21). H/22-ci ildə Ərdəbilin yaxınında olan Cəamidan dağında müsəlmanlar Reydən təzə qayıtmış İsfəndiyarla qarşılaşdılar. Bu Bukeyrin Azərbaycanlılarla ilk qarşılaşması idi. Bir neçə gün davam edən mühribədə bəziləri öldü, bəziləri isə qaçdı. İsfəndiyar isə əsir alındı. Əsir alınan İsfəndiyar Bukeyrə: "Sən sülhü yoxsa müharibəni daha çox sevirsən?" deyərək xitab etdi... Bukeyr ona "Sülh məndən uzaqdır." dedi. Bundan sonra İsfəndiyar Bukeyrə: "O halda məni yanında saxla, mən səninlə sülh andlaşması edim və onlara çatana qədər Azərbaycan xalqı heç vaxt sənə itaət etməz. Onlar bölgə ətrafında olan dağlara çəkilmiş və oralarda öz yerlərini tutmuşlar." Həqiqətən Bukeyr onu yanında saxlamış, ondan sonra da bir qala xaric bütün bölgə onun hakimiyyəti altına keçmişdir. Bu arada Simak b. Haraşə əl-Ənsari yardıma gələn qüvvətlərin başında Bukeyrin yanına çatmışdı. Bukeyr b. Abdullah Hz.Ömərə məktub yazıb vəziyyəti bildirmiş və buradan daha irəli bir nöqtəyə getmək mövzusunda ondan icazə istəmişdir. Ömər Bukeyrə "əlBab" tərəfinə doğru getməyə icazə vermiş və fəth etdiyi yerlərə öz yerinə vəkillər və işçilər təyin etməsini əmr etmişdir. Bunun üzərinə Bukeyr fəth etdiyi yerlərə Utbə b. Fərqadı təyin etdi. Utbə də Bukeyrin fəth etdiyi yerlərə Simad b. Haraşeyi vəzifələndirdi. Bu arada Ömər Azərbaycanın hər yerini Utbə b. Fərqadın əmrinə verdi. Bəhram b.

Fərruxzadın (İsfəndiyarın qardaşı) əmrindəki ordu Utbə b. Fərqadın əskərlərinə hücum etdi, ancaq bu dəfə də məğlub oldular. Bəhram özünü çox çətin qurtardı. İsfəndiyar Bəhramın məğlub olduğunu eşidincə "İndi barış tamamlandı, döyüşün atəşi söndü" dedi. Daha sonra Utbə ilə sülh etdi (7, c.III, s.33). Bütün xalq onun tərəfindən edilmiş olan bu barışı qəbul etdi. Beləcə bütün Azərbaycanda sükunət oldu. Bukeyr ilə Utbə bunu Ömərə bildirdilər və Alınan qənimətlərin 5/1-ni ona göndərdilər. Bu zəfəri müjdələmək üçün elçilər də göndərdilər. Bukeyr öz ətrafınakı torpaqları, Utbə tərəfindən zəbti qərarlaşdırılan torpaqların fəthindən əvvəl də ələ keçirmişdi. Utbənin Bəhrama qələbəsindən sonra barış tamamlandı (3, c.IV, s.154). Beləcə Azərbaycanın fəthində müsəlmanların qaşılaşa biləcəyi iki böyük əngəl ortadan qaldırıldı. Bu arada hələ də həbsdə olan İsfəndiyar artıq döyüşlərdən bezmiş, çox yorulmuş xalq adına Azərbaycanın hər yerindən məsul olan Utbə b. Fərqadlə sülh müqaviləsinin vacib olduğunu ifadə edir və İsfəndiyarla Utbə arasında bir sülh müqaviləsi imzalanır. Bu müqavilənin böyük əhəmiyyət daşıdıqı və Azərbaycanın fəthi tarixində mühim bir yeri vardır. Bütün güclərinin artıq bitdiyini və bundan sonrakı müqavimətlərinin insan itirməkdən başqa heç bir şey ifadə etməyacəyini görən və əsirlikdə olan İsfəndiyar b. Fərruxzad Utbə b. Fərqadla H/18, M/639-cu ildə bu müqviləni imzalayır: "Əsirgəməyən və mühakimə edən Allahın adı ilə başlayıram. Bu, möminlərin əmiri Ömər b. Xəttabın valisi Utbə b. Fərqad tərəfindən Azərbaycanın düz və dağlıq yerlərində, daxilində və kənarlarında yaşayan əhalisinə verilən əmniyyət sənədidir. Onlar iqtisadi qüdrətlərinə görə baş vergisi (cizyə) ödəmək şərti ilə əmniyyət icərisindədirlər. Bu vergi üşaqlardan, qadınlardan, xəstə olub

əllərində bir şey olmayan kəslərdən və özlərini ibadətə verdikləri üçün əllərində heç bir şey olmayan abidlərdən alınmaz. Onların arasında yaşayan xarici vətəndaşlar da eyni hökmə tabedirlər. Onlar yurdlarından keçən müsəlman əsgərlərini bir gün və bir gecə müsafir edərlər, onlara yol göstərərlər, onlardan səfərbər olanlar evlərinə dönərək yurdkarında yaşayarsa səfərdə iştirak etməyən kimsələr kimi eyni hökmlərə tabe olarlar. Yurdlarından köçüb gedənlər əmin olacaqları yerə sığınıncaya qədər əmniyyət içərisindədirlər. Müqavilə Cudəbin qələmi ilə yazıldı. Leys qəbiləsindən Bukeyr b. Abdullah ilə ənsardan Simak b. Haraşə şahidlik etdi. Bu müqavilə H/18-ci ilində qələmə alındı.” Ancaq Bəlazurunin iddiasına görə bu müqavilə Huzeyfə ilə İsfəndiyar arsında imzalanmışdır. Bəlazurinin “Futuhül-Buldan” adlı əsrində yer alan müqavilə mətininə görə Mərzuban müsəlmanlara 800.000 dirhəm verəcək, bunun əvəzində müsəlmanlar heç kəsi öldürməyacək, əsir almayacaq, “atəşgahları” dağıtmayacaqlardı. Balasaqan, Savalan və Satrudan sakinlərinə toxunmayacaqlar. Şis halisinə bayramlarda öz adətlərinə görə açıq əylənməyə icazə verəcəkdilər. Bəlazurinin iddiasına görə bu müqavilədən sonra Ömər Huzeyfəni vəzifəsindən azad etmiş və onun yerinə Utbə b. Fərqadı təyin etmişdir. Ömər fəth edilən yerlərin idarəsini Utbəyə verdikdə bunu məktubla Azərbaycan xalqına bildirdi. Beləcə Azərbaycanın cənubu fəth edildi. Bundan sonra müsəlmanlar şimala doğru hərəkət edəcəkdilər. Əsas məqsədləri isə Dərbənd “əl-Bab”ı fəth etmək idi. Azərbaycanın cənubunu fəth etdikdən sonra müsəlmanların babı (qapını) fəth etmə istəklərini başa düşmək o qədər də çətin deyildi. Müsəlmanlar şimal sərhədlərini əmniyyətə almazlarsa həm Azərbaycan, həm də cənubi qafqazın digər vilayətləri ilə davamlı problem

yaşayacaqlarını yaxşı bilirdilər. Sasani imperatorluğunun şimalda yaşayan Xəzərlilərlə başı həmişə bəlada idi (5, s.23). Müsəlmanlar üçün ən sağlam olanı Dərbəndi fəth edib yolları idarələri altına almaq idi. Bu səbəblə ordu şimala tərəf irəliləməyə başladı. 639-cu ildə müsəlman ordusunun bir hissəsi şimala tərəf hərəkət etdi. Bu səfərin çətin olacağını yaxşı bilən Ömər Suraqa b. Ömər, Huzeyfə b. Əsəd əl-Qıffar, Həbib b. Məsləmə, Abdurrahman b. Rabiə "əl-Behl" və onun qardaşı Salmanı Bukeyrə kömək üçün bu bölgəyə göndərdi. Suraqa b. Ömər xəlifənin əmri ilə ordunun komandiri oldu. Göndərilən əsgərlərin irəli gələnlərinin komandirliyi də Əbdürrəhman b. Rabiəyə (bunun adının Zinnur olduğu bildirilir) verilmişdi. Əsgərlərin sağ və sol cinahlarından bir cinahına Huzeyfə, digər tərəfə də Bukeyri təyin etdi. Son zərbəni isə Salman vuracaqdı. Bu arada Sasanilərin şimal sərhədlərinin mövzubanı Şəhriyar idi. Bu kəs İsrail oğulları üzərinə yürüyəcək, onları Şamdan çıxarmış olan hökmdar Şəhri Razın övladlarındandır. Hökmdar Əbdürrəhmana məktub yazıb onun hüzuruna gəlmək üçün izin istədi. Əbdürrəhman tərəfindən ona izin verildi və onun hüzuruna gələrək "Mən it kimi tutan, nəsilləri bilinməyən və şərəfsiz qövmlər qarşısındayam. Şərəf və əsalət sahibi bir kəs, belə şəxslərə kömək etməz və onlardan kömək də istəməz. Əsalət sahibi kəslər harada olurlarsa olsunlar, bir-birlərinə yaxındırlar, mənim Qıpcaq və Ermənilərə münasibətim yoxdur. Siz gələrək məmləkətimi ələ keçirdiniz və qövmümü idarə altına aldınız. Mən bu gün sizdən bir fərdəm, əlim sizin əlimizlə birlikdədir. Siz hara meyl edərsəniz, mən də o tərəfə meyl edərəm. Tanrı bu birliyi sizin üçün də, bizim üçün də mübarək etsin. Biz sizə "baş vergisi" ödəməyəcəyik, bizi istədiyiniz şəkildə idarə edin, ancaq baş

vergisi ödədərək bizi rəzil etməyin. Çünçü bu təqdirdə bizi düşmənlərimizə qarşı zəiflətmiş olarsınız” dedi. Əbdürrəhman ona “Mənin üzərimdə bir kəs vardır. O səni himayəsi altına almışdır. Sən onun hüzuruna get” deyərək onu Suraqanın hüzuruna göndərdi. Hökmdar ona da Əbdürrəhmana söylədiklərini təkrarladı. Suraqa ona “Sözünüzdə sadiq olduğunuz müddətcə sənin idarəndə onları “baş vergisindən” azad etdim. Ancaq bizimlə birlikdə düşmənə qarşı yürüməyib evlərində oturanlar baş vergisini ödəyəcəklər” deyə cavab verdi. Hökmdar Suraqanın bu təklifini qəbul etdi və bu hal bundan sonra da müsəlmanlarla birlikdə şərik qoşanlara qarşı döyüşənlər haqqında bir qayda oldu. Beləcə müsəlman xalqlar səfərbər edildikləri vaxt o ilin baş vergisindən xilas olurdu. Suraqa Hz.Ömərə bunu məktubla bildirdi. Ömər onun bu işini təstiq edib çox gözəl bir iş olduğunu ifadə etdi. Beləcə, Dərbənd müsəlmanlar tərəfindən fəth edilmiş oldu (7, c.III, s.34). Dərbəndi ələ keçirincə Şimal sərhədlərini əmniyyət altına alan Suraqa şimali qafqazı fəth etmək üçün Muğan, Tiflis, Alan ölkəsinə və Albaniyaya ordu göndərdi. Muğana göndərilən əsgərlər Bukeyrin, Tiflisə göndərilənlər Həbib b. Məsləmənin, Alana göndərilənlər Huzeyfə b. Əsədin, Albaniyaya göndərilənlər isə Səlmanın əmrində idi. Suraqanın etdikləri yaxşı niyyətli olsa da Ömərin xoşuna gəlmədi. Çünki Ömər Suraqanın fəth üçün ordu göndərdiyi vilayətlərin coğrafi vəziyyətinə və ordusunun çox olmasına fikir vermədiyini bilirdi. Belə ki, bu səfərlərdə təkcə Bukeyr qələbə qazandı. Suraqa vəfat etdi və yerini Əbdürrəhman b. Rabiyəyə tərk etdi (3, c.IV, s.157). Bukeyr Muğanı fəth edərkən oranın əhalisi ilə bu müqaviləni imzaladı: “Əsirgəməyən və mühakimə edən Allahın adı ilə. Bu aman kağızı Bukeyr b. Abdullah tərəfindən Qafqaz dağlarından sayılan Muğan

əhalisinə verilmişdir. Verdiyimiz sözü yerinə yetirmək vəzifəmizdir. Kömək ancaq Allahdandır. Onların bu şərtlərə riayət etməyib müsəlmanları aldatdıqları görülərsə bu aman kağızı mötəbər deyildir. Ancaq şərtlərə riayət etməyənlərinə hamısını təslim edərlərsə mötəbər olar.
Əks halda onlar da müqaviləyə zidd hərəkət edənlərə kömək etmiş olarlar. Buna Şəmma b. Zira, Rəsaris b. Cənadib və Hamlə b. Cəriyyə şahitlik etdi. Müqavilə H/21ci ildə yazılmışdır (3, c.IV, s.157). Bu zəfərdən sonra Ömərin əmri ilə müsəlmanlar "Əsərbəndin" cənubuna, yəni Xəzərlilərin torpaqlarına tərəf hərəkət etdilər. Bu arada Suraqnın öz yerinə Əbdürrəhmanı təyin etdiyini eşidən Ömər Dərbənd sərhədlərinin valiliyi vəzifəsini də ona verdi. Ona xəzərlilərə qarşı döyüşməyi əmr etdi. Əmr üzərinə Əbdürrəhman yola çıxdı. Şəhriyar ona "Nə etmək istəyirsən" deyə soruşarkən, O, "Bələncər tərəfə gedəcəm" deyərək cavab verdi. Şəhriyar "Biz onların qapısının o biri tərəfindən səslənmələrindən xoşlanırıq" deyincə, Əbdürrəhman "Biz bununla kifayətlənməyəcək, onların ölkələrinə girəcəyik. Vallahi, biz elə qəhrəmanlara şahidik ki, əmirimiz səddin içərisinə qədər girməyimizə icazə verdiyi halda, mən bu əsgərlərimlə Yəcuc-Məəcuc səddinə qədər çataram" cavabını verdi. Əbdürrəhmana "Bu əsgərlər kimdir" sualı veriləndə O, "Bunlar Allah Rəsuluna dostluq edib zəfəri qazanmaq niyyət və məqsədi ilə bu işə başlamış insanlardır. Onlar cahiliyyə zamanında da hörmət və həya sahibləri idi. İslamiyyət onların həya və hörmətini yüksəltdi. Onlar daima zəfər qazandılar və yardıma nail oldular. Məğlub etdikləri kimsələr onların əxlaq və həyalarını dəyişdirincəyə qədər Allah onlara yardım edəcək" dedi. Əbdürrəhman hərəkətə keçincə Allah Xəzərlilərin onun üzərinə hücum etməsinə mane oldu. Xəzərlilər "Bu adamın

bizə qarşı bu qədər cürətli olmasının səbəbi mələklərin ona kömək etməsindən və onu qorumasından irəli gəlir" deyərək qalalarına çəkildilər. Əbu Məhəmməd Əl-Kufi "Kitab əl-Futuh" adlı əsərində bu mövzuya yer verir və belə yazır: "Müsəlmanların şəhərə yaxınlaşdığını eşidən Xaqan (hökmüdar) şəhəri tərk etdi. Bu səbəblə ona belə dedilər: "Ey hökmdar! Sənin əmrində 300000 əsgərlik bir ordu var ikən sən niyə 10000 əsgərdən qaçırsan?" hökümdarın cavabı belə idi: "Mən üzərimizə gələnlər haqqınd bəzi şeylər eşitmişəm. Deyilənlərə görə onlar göydən eniblər və heç bir silah onlara təsir etmir. Onların qarşısında kim dura bilər?" (8, s.9). Hökümdar şəhərdən qaçdı. Müsəlmanlar şəhərə girəndə şəhərdə heç kəs yox idi (9, s.58). Bu səbəblə Əbdürrəhman zəfər qazanaraq qənimətlər əldə edib geri döndü. Bu hadisə Ömərin xilafəti zamanında baş vermişdir. Əbdürrəhman Osmanın xəlifəliyi zamanında da bir neçə dəfə xəzərlilərin üzərinə yürüdü və zəfərlər qazanaraq ordugahına döndü. Əbdürrəhmanın bundan sonrakı səfərləri ərəfəsində Xəzərlilər birbirlərini müsəlmanlara qarışı hərbə dəvət etdilər və onlar da olar dedilər. Onlardan biri yaxınlaşaraq müsəlman əskərini təqib etməyə başlamış və o dəstəmaz alarkən ölüb-ölməyəcəyini öyrənmək üçün ona ox atmış, ox müsəlman əsgərə təsir etmiş və ölmüşdür. Sonra müsəlmanın başını kəsib paltarı ilə birlikdə hökmdara gətirmiş və demişdir: "Ey hökümdar! Sən bunlar üçün ölməz, ölüm onların alnına yazılmamış deyirdin. Bu isə onlardan biridir" (8, s.9-10). Bundan sonra Xəzərlilər meydana çıxıb döyüşməyə başladılar. Əbdürrəhman öldürülənə qədər döyüşdü. Bundan sonra bayrağı Salman b. Rabiə aldı. Bu zaman havadan təkrar bir səs gəldi: "Ey müsəlman ailəsi! Səbr edin! Görüşəcək yer olaraq bizə cənnət vəd edilmişdir. Salman "Mənim qorxduğumumu zənn edirsən?"

deyə cavab verdi və Əbdürrəhman daxil çox sayıda müsəlman şəhid edildi. Buranın əhalisi ilə Azərbaycan əhalisi ilə imzalanan sülh müqaviləsinə bənzər bir müqavilə imzalandı" (1, s.81). Beləcə, müsəlmanların Azərbaycana ilk səfəri tamamlandı. Bu səfərdə müsəlmanlar Azərbaycanın cənubunu və Xəzər dənizinin sahilindəki vilayətləri fəth etdilər. Ancaq müsəlmanlar fəth etdikləri bu yerlərdə hakimiyyətlərini tam bir şəkildə qura bilmədilər (5, s.27).

İSTİFADƏ EDİLMİŞ MƏNBƏLƏR 1.Ziya Bünyadov, Azərbaycan VII-IX əsrlərdə, Azərbaycan Dövlət Nəşriyyatı, Bakı1992. 2.Moisey Kağankatlı, Akvan Tarixi, Sank Peterburq-1861. 3.ət-Təbəri, Tarixur-rusul vəl-mülük, c. I, Beyrut-1997. 4.Philip K. Hitti, Siyasi ve Kültürel İslam Tarihi, c. I, (tər: Salih Tuğ), Marmara Üniversitesi İlahiyat Fakültesi Yayınları, İstanbul-1995. 5.Nailə Vəlixanlı, IX-XII əsr Ərəb Coğrafiyaşünas Səyyahları Azərbaycan Haqqında, Bakı-1974. 6.Bələzuri, Futuh əl-Büldan, Misir-1932. 7.İbn əl-Əsir, əl-Kamil fit-Tarix, Beyrut-Livan-1998. 8.Əbu Muhamməd əl-Kufi, Kitab əl-Futuh, Beyrut-1981. 9.Yavər Mahmudov, Azərbaycan Tarixi Üzrə Qaynaqlar, Bakı-1989.

**Fuad İzzət oğlu Nurullayev**